**UOT 902**
**https://doi.org/10.59849/2218-4783.2026.1.120**

# GƏMİQAYA TƏSVİRLƏRİNDƏ YAXIN ŞƏRQ MOTİVLƏRİ

# NEAR EASTERN MOTIFS IN THE GEMIQAYA PETROGLYPHS

**Elmar BAXŞƏLİYEV***

## XÜLASƏ

Son illərdə Gəmiqaya petroqlifləri üzərində aparılan araşdırmalar Yaxın Şərq, xüsusilə Mesopotamiya inanc sisteminin bu kompleksin formalaşmasına göstərdiyi təsiri müşahidə etməyə imkan verir. Gəmiqayada qeydə alınmış astral işarələr, zoomorf təsvirlər, ritual səhnələri və sxematik simvollar Şumer və ümumilikdə Yaxın Şərq ikonoqrafiyası ilə bir sıra ümumi semantik xüsusiyyətlərə malikdir. Müxtəlif motivlərin, xüsusilə yeddi ulduz, keçi kultu, əqrəb təsvirləri, nərdivan və xaçvari işarələr, həmçinin sakral səhnələrin müqayisəli təhlili Cənubi Qafqaz və Yaxın Şərq tayfaları arasında ideoloji bənzərliklərin olduğunu göstərir. Araşdırmalar göstərir ki, Gəmiqaya təsvirlərinin formalaşmasında Yaxın Şərq motivlərinin müəyyən rolu olmuşdur. Bu təsvirlər qədim insanların ideoloji düşüncə tərzini və Cənubi Qafqazla Yaxın Şərq arasındakı mədəni əlaqələrin öyrənilməsinə işıq tutur.

**Açar sözlər:** *Yaxın Şərq, Petroqlif, Azərbaycan, Cənubi Qafqaz, mifologiya.*

## ABSTRACT

Recent studies conducted on the Gemiqaya petroglyphs make it possible to observe the influence of the Near Eastern especially Mesopotamian belief system on the formation of this complex. The astral signs, zoomorphic petroglyphs, ritual scenes, and schematic symbols recorded at Gemiqaya share a number of common semantic features with Sumerian and, in general, Near Eastern iconography. A comparative analysis of various motifs especially the seven star symbol, the goat cult, petroglyphs of scorpions, ladder and cross-shaped signs, as well as sacred scenes demonstrates ideological similarities between the tribes of the South Caucasus and the Near East. Research shows that Near Eastern motifs played a certain role in the formation of the Gemiqaya petroglyphs. These petroglyphs shed light on the ideological worldview of ancient peoples and contribute to the study of cultural ties between the South Caucasus and the Near East.

**Keywords:** *Near East, Petroglyph, Azerbaijan, South Caucasus, Mythology.*

## GİRİŞ

Gəmiqaya petroqlifləri Azərbaycanın qədim tayfalarının ideoloji düşüncələrinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Qaya təsvirləri XX əsrin ortalarından başlayaraq müxtəlif tədqiqatlarla öyrənilmişdir [Baxşəliyev, 2003, p. 4-120; Baxşəliyev, 2004, p. 182-259]. Bu təsvirlərin Yaxın Şərqdə Mesopotamiyanın sənət əsərlərində geniş yayılmış təsvirlərlə bənzərliyi onları Yaxın Şərq sənəti ilə müqayisəli tədqiq etməyə imkan yaradır. Gəmiqayada qeydə alınmış təsvirlərin antropomorf, zoomorf, astral və sxematik simvollardan ibarət müxtəlif tipləri vardır. Bu müxtəliflik təsvirlərin təsadüf nəticəsində meydana çıxmadığını, müəyyən ideoloji təsəvvürlər, rituallara bağlı olduğunu və onların müəyyən fikri ifadəsi olduğunu göstərir. Bununla belə, Gəmiqayadakı motivlərin mənşəyini müəyyən etmək üçün yalnız bu təsvirləri öyrənmək kifayət deyil, həm də onların Yaxın Şərqdəki Neolit, Eneolit və Tunc dövrünə aid sənət əsərləri arasındakı paralellərini də araş-

* AMEA Naxçıvan Bölməsi, e-mail: elmarbakhshaliev@gmail.com
ORCİD: 0000-0003-3360-0961

dırmağa ehtiyac vardır. Arxeoloji tədqiqatlar göstərir ki, e. ə. VI-II minilliklərdə Cənubi Qafqazın mədəniyyətləri Mesopotamiya mədəniyyətləri ilə sıx bağlı olmuş və bu əlaqələr bölgədə yaşayan insanların iqtisadi və mədəni həyatına, həmçinin ideoloji görüşlərə təsir etmişdir [Baxşəliyev, 2023, p. 255-318]. Araşdırmalarımız göstərir ki, Gəmiqaya petroqliflərindəki müəyyən motivlərinin Yaxın Şərqin sənət nümunələri ilə bənzərliyi tipoloji uyğunluqdan daha çox, mədəni informasiya mübadiləsinin nəticəsi kimi qiymətləndirilə bilər. Buna görə də, biz bu tədqiqat işində Gəmiqaya təsvirlərinin ideoloji mahiyyətini açmaq üçün onları Yaxın Şərqin keramika, metal və qliptikadakı təsvirlərlə müqayisəli şəkildə araşdırmağı qarşımıza məqsəd qoymuşuq. Gəmiqaya təsvirlərini Yaxın Şərq sənətindəki bənzərləri ilə tipoloji və semantik baxımdan təhlil edərək, qədim mədəniyyətlər kontekstində onların semantikasını və qədim insanların ideoloji düşüncə tərzini müəyyənləşdirməyə çalışacağıq.

## GƏMİQAYA TƏSVİRLƏRİNİN TİPOLOJİ ANALİZİ

Gəmiqaya təsvirləri tipoloji baxımdan olduqca müxtəlifdir. Bu təsvirlərin müəyyən hissəsi astral təsvirlərdir. Bu təsvirlərdən biri I Qaranquş yaylağında qrup halında yeddi nöqtədən ibarət təsvirdir (şəkil 1. 1). Bu təsvir Yaxın Şərqin xalqlarının astral təsəvvürləri ilə bənzərliyi tədqiq etməyə imkan verir. Yeddi ulduzun birlikdə təsviri, Mesopotamiyada həm Pleiades ulduz yığınına [Verderame, 2016, p. 109-117], həm də daha mifoloji bir kateqoriya olan Sebettu / Sebitti qrupuna [Wiggermann, 1992, p. 21] uyğun gəlir və ikili məna ifadə edir. Mesopotamiya mədəniyyətlərində Pleiades ulduz topası e .ə. 3-cü minilliyin əvvəllərindən etibarən mul.mul kimi qeydə alınır və çox vaxt tanrıların kosmik nizamı ilə bağlı səhnələrdə istifadə olunur. Akkad və III Ur dövrünə aid silindr möhürlərində yeddi ulduz işarəsi, xüsusilə İnanna (İştar), Utu (Şamaş) və Enlil kimi tanrıların iştirak etdiyi səhnələrin fonunda verilir [Black-Green, 1992, p. 108]. Sebettu, Mezopotamya ikonografiyasında Pleiadesin astral simvolu ulduz topası kimi təsvir olunur və yazılı mənbələrdə onların xaotik, liminal və təhlükəli təbiəti Pleiadesin hərəkət trayektoriyaları ilə izah edilir [Konstantopoulos, 2015, p. 317-318]. Bununla yanaşı Akkad mifologiyasında fırtına tanrısı Ninurta və ya Erra ilə əlaqələndirilən döyüşkən, dağıdıcı varlıqlar çox vaxt bu ulduz sistemi ilə eyniləşdirilir. Erra eposunda Sebettular göydə doğulmuş, lakin yer üzündə fəlakətlərin vasitəçiləri kimi təsvir edilirlər [Foster, 2005, p. 881]. Araşdırmalar, yeddi ulduzun həm astronomik obyekt, həm də mifoloji obraz kimi ikili xarakter daşıdığını göstərir. Silindr möhürlərdə bu motivin işlənməsi qədim Mesopotamiya ikonografiyası çərçivəsində dəyərləndirilə bilər. Burada yeddi ulduzun qrup şəklində təsviri göy aləmini ifadə edən ulduz xəritələrinin mərkəzi elementlərindən biri kimi təqdim olunur və göy cisimlərinin müəyyən bir astronomik nizam daxilində göstərilməsi ilə uzlaşır. Bu motivin möhürlərdə yer alması, ulduz təsvirlərinin mifoloji və kosmoqrafik çərçivədə vizual şəkildə ifadə olunması praktikasının ikonografik davamlılığını göstərir [Horowitz, 1998, p. 15]. I Qaranquş yaylağında qeydə alınmış yeddi ulduz Mesopotamiyanın həm astral, həm də mifoloji məzmun daşıyan Pleiades və Sebettu inancı ilə paralellik göstərən motiv kimi dəyərləndirilə bilər. Bu uyğunluqlar, Gəmiqayada aşkar edilmiş motivin Yaxın Şərqin astral təsəvvürləri ilə əlaqələnə biləcəyini göstərir.

Gəmiqayadan aşkar edilmiş digər bir motiv keçi və xaç motividir. II Qaranquş yaylağında qeydə alınmış keçi və onun yuxarısında təsvir edilmiş xaç işarəsi (şəkil 2. 1) qədim tayfaların pastoral-sakral ikonografiyasının tipik nümunələrindən biridir. Təsvir iri bazalt qaya parçasının üstünə cızma texnikası ilə işlənmişdir. Bu motivin mənası hələlik tam açılmasa da, keçi təsviri ilə xaç işarəsinin birgə verilməsi motiv haqqında müqayisəli araşdırmalar aparmağa imkan yaradır. Gəmiqaya təsvirlərində keçi və xaç işarələri Cənubi Qafqazla Şimali Mesopotamiya arasında bəzi oxşarlıqların olduğunu göstərir.



**Şəkil 1.** Yeddi ulduz motivi. 1 – Gəmiqaya (Aliyev, 2020, fig. Q-I-132), 2 – Yeni Aşşur möhürü (Black & Green, 1992, fig. 87).



**Şəkil 2.** Keçi və xaçın birlikdə təsviri. 1 – Gəmiqaya (Aliyev, 2020, fig. Q-II-43), 2 – Cəmdət Nəsr dövrünə aid silindir möhür (Collon, 1982, fig. 58).

Diyala bölgəsində keçi motivi ilə xaçvari naxış məbəddə eyni kontekstdə, yanaşı təsvir edilir. Bu, motivlərin eyni ideoloji və inzibati sistem daxilində əlaqəsini göstərir [Dittmann, 2013, p. 86]. Gəmiqayadakı keçi və xaç işarəsi də Cənubi Qafqazın özünəməxsus yerli ikonografiyası ola bilər. Gəmiqayada və Mesopotamiyada məbədlərində keçi ilə xaçın birlikdə verilməsi, bu iki motivin eyni kult sisteminin içində yanaşı işlənməsi onların semantik yaxınlığına işarə edir. Qeyd etmək istəyirik ki, Gəmiqayadakı keçi fiqurunun başı üstündə yerləşdirilmiş xaçvari motiv, Mesopotamiya silindr möhürləri və keramikası üzərində olan simvolik keçi və xaç təsvirləri ilə paralellik təşkil edir (Amiet, 1980, p.21). Xüsusilə Uruk dövrünün son mərhələsi, Jemdet Nasr dövrünə aid iki keçinin başı üzərində xaç işarəsinin yerləşdirildiyi silindir möhür vardır [Pittman 1994, p. 200; Collon 1982, p. 25, fig. 58]. II Qaranquş yaylağındakı keçi və xaç motivi göstərir ki, Gəmiqaya təsvirləri təkcə yerli pastoral tayfaların inanclarının ifadəsi deyil, həm də Yaxın Şərqin inanc sistemləri ilə paralellik göstərən, geniş bir bölgədə məskən salan insanların ideoloji təsəvvürlərinin tərkib hissəsidir. Müxtəlif bölgələrdə paralellərin mövcudluğu, bu motivin təsadüfi deyil, müəyyən kult məntiqinə söykənən ardıcıl bir düşüncə sisteminin təzahürü olduğunu ehtimal etməyə imkan verir. Bu təsvir həm Gəmiqayada formalaşmış yerli sakral motivin orijinallığını, həm də onun daha geniş bir regionla əlaqəsinin göstəricidir.

I Qaranquş yaylağından baş hissəsi dairəvi nöqtə şəklində və boyun hissəsi çox qısa, demək olar ki, birbaşa gövdəyə birləşən, qolları hər iki tərəfə üfüqi istiqamətdə açılmış insan fiquru aşkar edilmişdir (şəkil 3.1). Fiqurun sağ qolu dirsəkdən yuxarı qalxmış, sol qol isə dirsəkdən aşağı enmiş vəziyyətdədir. Bu asimmetriya fiqurun hərəkət və ya ritual icra etdiyini düşündürür. Gövdəsi xətt boyunca aşağıya doğru uzanır. Orta hissəsində üfüqi xətt müşahidə olunur. Bu motiv paltar detalı kimi yozula bilər. Ayaqlar bir-birindən aralanmış şəkildə təsvir edilib və ayaqlarının ortasından aşağı uzanan bir xətt müşahidə olunur. Ümumilikdə, motivin bədən nizamı şərti və stilizə edilmiş formaya əsaslanır. Bu tip stilizə edilmiş insan təsvirləri təkcə Cənubi Qafqazda deyil, Levant, Anadolu, Mesopotamiyanın və qismən İranın müxtəlif bölgələrində müşahidə olunur [Dominique, C. 1982, p. 110-111].

Levant bölgəsində daha dəqiq Cübeyldən aşkar edilmiş möhür üzərində bu tip insan fiqurları qeydə alınmışdır [Dunand, 1950, No. 1475, Pl. CXCIII and p. 450 -Levee X; Buchanan, 1966, № 1016] Tell Beit Mirsimdə aşkar edilmiş iki möhür [Albright, 1936, p. 129, pl. 33, 3], Tell el-Muteselim və Tell el-Duweir tapıntıları [Parker, 1949, pl. XX, 134; pl. XXIII, 150], eləcə də Meskene möhürləri [Beyer, 1980, № 13] Levantda bu tip motivin yayılmış olduğunu göstərir. Bu baxımdan Alaca Höyükdən aşkar edilmiş bir möhür [Delaporte, 1909, № 128] üzərindəki bu tip təsvirlər Ana dolu yaylası ilə Cənubi Qafqaz arasında əlaqələrinin olduğunu göstərən mühüm nümunə kimi qiymətləndirilə bilər.

Mesopotamiya bölgəsində oxşar antropomorf çubuq (stick) motivlər e. ə. III minilliyin Erkən Sülalələr dövrünün möhürlərində müşahidə olunur. Xüsusilə Khafaje və Susa tapıntıları bu tip motivlərin daha erkən tarixi ənənəyə malik olduğunu göstərir [Amiet, 1961, Pl. 73, № 965-970]. Bu möhürlərdə qolları yuxarı qaldırılmış, hərəkət və ya ibadət jesti icra edən fiqurlar geniş yayılmışdır. Mesopotamiyada qolu yuxarı qaldırmaq dua, tanrıya müraciət və ya qurban mərasiminin bir hissəsi kimi qəbul edilirdi [Frechette, 2012, p. XV]. Gəmiqayadakı motivin sağ qolunun yuxarı qaldırılması görüntüdə bu ənənə ilə paralellik yaradır. Bu baxımdan Gəmiqayadan aşkar edilmiş motivin müəyyən ideoloji düşüncənin bir hissəsi ola biləcəyini deyə bilərik. Naxçıvan, Urmiya hövzəsi, Anadolu, Şimali Mesopotamiya, Levant bölgələri boyunca uzanan yollar erkən ticarət və mədəni əlaqə yolları kimi tanınır. Yaxın Şərqdə metallurgiya, obsidian və digər xammal yolları ilə bağlı olaraq geniş qarşılıqlı əlaqələrin mövcudluğu arxeoloji tədqiqatlarda təsdiqlənmişdir. Bu marşrut boyunca bənzər motivlərin olması tamamilə real tarixi proses kimi qiymətləndirilə bilər. Gəmiqayadan aşkar edilmiş motivin Levant, Anadolu və Mesopotamiya möhürləri ilə oxşarlıqları da həmin dövrdə regionlararası ideoloji əlaqələrin mümkün ola biləcəyini göstərən dəlillərdir. Bu paralellər Gəmiqaya motivlərinin təkcə yerli dünyagörüşün deyil, eyni zamanda Yaxın Şərqlə əlaqəli inkişaf etmiş geniş inanc sistemin də bir parçası ola biləcəyini göstərir.



1

2

**Şəkil 3.** Ritual duruşla bağlı təsvirlər. 1 – Gəmiqaya (Aliyev 2020, fig. Q-I-124), 2 – Tell el-Duweir silindir möhürü (Parker 1949, fig. 150).




1

2

**Şəkil 4.** Ana ilahəyə qurbanvermə ritualı. 1 – Gəmiqayada (Aliyev, 2020, fig. Q-I-260), 2 – Babil dövrünə aid silindir möhür ( Collon, 1982, fig. 168).

I Qaranquş yaylağındakı qayaüstü təsvirlərin birində doğum və qurbankəsmə ilə bağlı ritual öz əksini tapmışdır. Təsvirlər fərqli qalınlığı olan xətlərlə cızma texnikası ilə işlənmişdir (şəkil 4. 1). Bu təsvirdə soldan başlayaraq antropomorf fiqurun gövdəsi düz xətlə təsvir edilmişdir. Figurun baş hissəsi isə xəttin yuxarı ucunda yerləşən kiçik uzunsov xətt ilə bitirilmişdir. Bu xəttin yuxarı hissəsində yan tərəflərə iki qısa çıxıntı ilə qollar təsvir olunmuşdur. Qollar yanlara simmetrik və bir qədər yuxarı istiqamətlənmiş şəkildə açılır. Alt hissədə isə əsas şaquli gövdə xəttindən kəskin bucaq altında iki yana ayrılan uzun xətt fiqurun ayaqlarını formalaşdırır və ayaqların ortasında daha bir şaquli xətt təsvir olunub (şəkil 4, 1,1). Ortadakı antropomorf fiqurun gövdəsi enli bir xətt ilə cızılmışdır. Gövdənin üst hissəsindən iki tərəfə qısa, yuxarı istiqamətlənmiş xətt çıxıntıları qolları nümayiş etdirir. Baş isə üst nöqtəşəkilli kiçik dairəvi işarə ilə göstərilmişdir. Alt hissədə yuxarıya doğru şaxələnən iki xətt fiqurun ayaqlarına vurğu edir. İki ayağın ortasından şaquli vəziyyətdə qalın xətt təsviri var. Bu təsvir doğuş mövqeyi kimi izah etməyə imkan verir (şəkil 4, 1, 2). Sağdakı antropomorf fiqur daha dinamik quruluşa malikdir. Onun gövdəsi eyni qayda olaraq şaquli əsas xətlə ifadə olunub, lakin qollarından biri ön istiqamətə uzadılaraq ucunda iti konturlu qısa diaqonal xətlə tamamlanır. Bu təsvir bıçaq kimi şərh edilə bilər. Digər qol yan istiqamətə yönəlmiş iki çıxıntı ilə bitir. Fiqurun qarşısında yerləşən heyvan təsviri bir neçə paralel və qıvrım xəttin kombinasiyası ilə formalaşdırılıb. Bədən yüngülcə əyilmiş və fiqurun digər əli üçbucaqvari xətt ilə təsvir edilən keçinin başı ilə birləşir. Heyvanın buynuzları geriyə doğru qövsvari şəkildə əyilən, yuxarısı əyrilikli bir quruluşa malikdir. Ayaqları aşağıya doğru uzanan paralel qısa şaquli xətlərlə ifadə olunmuşdur (şəkil 4, 1,3). Aşkar edilmiş təsvirə nəzər saldıqda aydın olur ki, motivin üç antropomorf fiqurla müşayiət olunması, onların hər birinin fərqli xətt quruluşu ilə işlənməsi səhnənin müəyyən ardıcıllığa malik ritualla bağlı olduğunu göstərir. Xüsusilə orta fiqurun şaxələnən ayaq xətləri arasında mərkəzi qalın şaquli xəttin olması, doğuş mövqeyini xatırladan formada verilməsi, sol və sağdakı fiqurların isə bu mərkəzi fiquru tamamlaması bütöv bir ayin səhnəsi yaratmış olur. Sağdakı fiqurun əlində bıçağa bənzər təsvir, qarşısında isə keçi formasında təqdim olunmuş heyvan fiquru bu təsvirin rituallaşdırılmış qurbanvermə aktına işarə etdiyini deməyə əsas verir.

Mesopotamiya təsvirlərində insan fiqurunun tanrı və ya tanrıçaya keçi və ya qoyun gətirdiyi səhnələr mövcuddur. Bu motivin doğum kultu, bolluq-bərəkət və xüsusilə Ana Tanrıça ilə əlaqəsi haqqında tədqiqatçılar arasında elmi müzakirələr vardır. Bu müzakirə birbaşa ikonoqrafik şərhdən çox, təqdim edilən heyvanın tipinin və tanrı/tanrıçanın atributlarının müqayisəli təhlilinə əsaslanır.

Keçi və qoyunun bərəkət kultu ilə əlaqəsi ilk növbədə onların doğum, məhsuldarlıq və bərəkət rəmzi olması ilə bağlıdır. Mesopotamya təsvirlərini təhlil edərkən tədqiqatçılar qeyd edir ki, keçi xüsusilə erkək keçi bərəkət, heyvandarlıq və həyatın yenilənməsi ilə bağlı semantik məna ifadə edir [Roets, 2018, p. 1; Van Buren, 1936, p. 127; Mohammed, 2021, p. 465; Miller, 2013, p. 127]. Məhsuldarlıq və doğum kultları kontekstində əsas ana ilahələrdən biri olan Ninhursag/Nintu Mesopotamiya mətnlərində doğan ana kimi təqdim olunur. Bottéro-nun qeyd etdiyi kimi, ilahələrin rolu yaratmaqdan çox, doğumu və həyatın davamlılığını təmin etmək idi. Bu səbəblə Ninhursag insan və canlı həyatının yaranmasını himayə edən əsas qüvvə kimi təsvir edilirdi [Bottéro, 2001, p. 83].

Digər mümkün paralellər İştar / İnanna ilə bağlıdır. İnanna həm cinsi məhsuldarlığın, həm də siyasi gücün tanrıçası olaraq təsvir edilir. Qurban təqdimat səhnələrində qadın tanrıya yönəlmiş ibadətçini göstərən nümunələr mövcuddur [Dubcová, 2017, p. 437]. Bu cür səhnələrdə təqdim edilən heyvan hədiyyəsinin xüsusilə xırdabuynuzlu heyvanın məhsuldarlığını gücləndirmək ideyası ilə bağlı olması mümkündür. Lakin tədqiqatçıların fikrinə əsasən bu tip səhnələrdə ilahənin kimliyi hər zaman ikonoqrafik olaraq dəqiq müəyyən olunmur və yalnız cinsiyyətə görə ilahə olduğunu iddia etmək metodoloji olaraq düzgün hesab edilmir [Mayr, 2005, p. 53].

Fikrimizcə, Mesopotamiyada tanrılara kiçikbaş heyvanların təqdim edildiyi səhnələrin birbaşa doğum kultunu təsvir etdiyini iddia etmək mümkün deyil. Bununla birlikdə qurban konsepsiyası dolayı ikonoqrafiya olaraq işlənib. Gəmiqayadan aşkar olunan təsvirin isə doğum anını göstərən qadın fiquru, onun yanın-

da yerləşdirilmiş kişi obrazı və digər bir fiqur tərəfindən təqdim edilən keçi qurbanı müxtəlif ikonografik motivlərin bir araya gətirildiyi daha mürəkkəb ritual modeli ola bilər. Bu motivlərin paralel şəkildə mövcudluğunu doğumun mühafizəsi, həyatın davamlılığı və bərəkətin təmin edilməsi kimi anlayışlar olaraq başa düşə bilərik. Beləliklə, bu səhnənin birbaşa doğum kultunu təsvir etdiyini söyləmək mümkün olmasa da, keçi qurbanının semantik funksiyası ilə doğum ideyası arasında potensial əlaqə inkar edilə bilməz. Təsvirin kompozisiyası daxilində bu əlaqənin ritual səviyyədə nəzərdə tutulduğunu ehtimal edilə bilərik.

Dəyərləndirmə. Gəmiqaya petroqlifləri üzərində aparılan araşdırmalar göstərir ki, bu kompleks təkcə yerli xalqların dünyagörüşünü deyil, həm də Yaxın Şərq mədəni-ideoloji sistemləri ilə geniş semantik əlaqələri əks etdirən ikonografik təsvirlərdir. Araşdırmaya daxil edilən yeddi ulduz, keçi və xaç motivi, ritual duruşlu fiqurlar, qurbanvermə səhnələri, müqəddəs evlilik, əqrəb və keçi simvolları, nərdivan motivi və digər sxematik işarələr göstərir ki, Gəmiqayada təsvir edilən simvollar təsadüfi motivlər deyil. Əksinə, bu motivlər regionlararası ideoloji düşüncənin hissəsidir. Mesopotamiyada e. ə. IV-II minilliklərdə formalaşmış astral təsəvvürlər, məhsuldarlıq və doğum kultları, sakral nizam anlayışı, müqəddəs evlilik konsepsiyası və tanrı-insan münasibətlərinin təsviri dildə ifadəsi Gəmiqayadakı motivlərlə müqayisədə mühüm paralellər yaradır. Bu paralellər motivlərin birbaşa əlaqəsi mənasına gəlməsə də, Cənubi Qafqazla Yaxın Şərq arasında mədəni, ideoloji və ritual bənzərliklərin mövcudluğunu göstərir. Araşdırmalar göstərir ki, ticarət yolları, obsidian və metal xammalının yayılma marşrutları, erkən dini ritualların və ikonografik təsvirlərin paralellik göstərməsi və qarşılıqlı əlaqəni izah edən əsas amillərdir. Gəmiqayada təsvirlərin stilistik, kompozisiya və semantik xüsusiyyətləri onların mədəniyyətlərarası əlaqələrin izləri kimi dəyərləndirilə bilər.

## NƏTİCƏ

Araşdırmanın nəticəsi göstərir ki, Gəmiqaya petroqlifləri Cənubi Qafqazda formalaşmış yerli ideoloji düşüncənin məhsulu olsa da, onların tipoloji quruluşu və semantik mənaları Yaxın Şərq, xüsusilə Mesopotamiya ikonografiyası ilə çoxsaylı oxşarlıqlar göstərir. Bu paralellər göstərir ki, Gəmiqaya sadəcə yerli ritual məkanı deyil, həm də Yaxın Şərq mədəni əhatəsi ilə qarşılıqlı əlaqədə formalaşmış ideoloji bir məkandır. Gəmiqaya təsvirləri erkən cəmiyyətlərin kosmik nizam, məhsuldarlıq, müqəddəs güc və insan-tanrı əlaqələri barədə təsəvvürlərini əks etdirən kompleks ikonografik sistem kimi dəyərləndirilə bilər. Beləliklə, Gəmiqaya petroqlifləri yerli kult və ritual ənənələrinin inkişafını, Yaxın Şərq mifoloji düşüncəsi ilə semantik paralelləri, erkən ideoloji təsəvvürlərin simvolik izlərini və Cənubi Qafqazın geniş mədəni şəbəkədəki yerini aydın şəkildə göstərən arxeomədəni mənbədir. Bu nəticələr Gəmiqaya təsvirlərinin yalnız təsvir nümunəsi deyil, həm də qədim cəmiyyətlərin ideoloji düşüncəsini anlamaq üçün mühüm açar rolunu oynadığını təsdiqləyir.

## ƏDƏBİYYAT

Albright, W.F. (1936). The excavation of Tell Beit Mirsim *(vol. 2,* The Bronze Age*). American Schools of Oriental Research* (*Annual of the American Schools of Oriental Research*), 17.

Aliyev, N. (2020). *Gamigaya petroglyphs*. Ajami Publishing-Polygraphy Association.

Amiet, P. (1980). *La glyptique mésopotamienne archaïque* (2e éd., revue et corrigée, avec un supplément). Éditions du Centre National de la Recherche Scientifique.

Baxşəliyev, V.B. (2003). *Gəmiqaya təsvirləri*. Bakı: Elm.

Baxşəliyev, V.B. (2004). *Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti*. Bakı: Elm.

Baxşəliyev, V.B. (2023). *Naxçıvan arxeologiyası yeni tapıntılar işığında*. Naxçıvan: Əcəmi.

Beyer, D. (1980). Notes préliminaires sur les empreintes de sceaux de Meske'n. In J.-C. Margueron (Ed.), *Le Moyen Euphrate* (pp. 265-283). Brill.

Bottéro, J. (2001). *Religion in ancient Mesopotamia*. University of Chicago Press.

Buchanan, B. (1966). *Catalogue of ancient Near Eastern seals in the Ashmolean Museum*. Clarendon Press.

Collon, D. (1982). *First impressions: Cylinder seals in the ancient Near East*. British Museum Press.

Delaporte, L. (1909). *Catalogue du musée Guimet: Cylindres orientaux*. Ernest Leroux.

Dittmann, R. (2013). Glyptic and patterns of urbanization: A humble approach. *Patterns of urban societies* (T.R.Kämmerer & S.Rogge, Eds.), 35-138. Ugarit-Verlag.

Dubcová, V. (2017). Approaching a deity: Near Eastern presentation scenes and the Aegean. *Proceedings of the 10th International Congress on the Archaeology of the Ancient Near East* (B.Horejs & C.Schwall, Eds.), 1, 437-454. Harrassowitz Verlag.

Dunand, M. (1950). *Fouilles de Byblos, 1933-1938* (Vol. 2, *Atlas*). Librairie d'Amérique et d'Orient Adrien-Maisonneuve.

Foster, B.R. (2005). *Before the muses: An anthology of Akkadian literature* (3rd ed.). CDL Press.

Frechette, C.G. (2012). *Mesopotamian ritual-prayers of "hand-lifting" (Akkadian šuillas): An investigation of function in light of the idiomatic meaning of the rubric*. Ugarit-Verlag.

Horowitz, W. (1998). *Mesopotamian cosmic geography*. Eisenbrauns.

Konstantopoulos, G.V. (2015). *They are seven: Demons and monsters in the Mesopotamian textual and artistic tradition* (Doctoral dissertation, University of Michigan).

Mayr, R.H. (2005). *Seal impressions on tablets from Umma*. Nederlands Instituut voor het Nabije Oosten.

Miller, N.F. (2013). Symbols of fertility and abundance in the Royal Cemetery at Ur, Iraq. *American Journal of Archaeology*, *117* (1), 127-133. https://doi.org/10.3764/aja.117.1.0127

Mohammed, O.F. (2021). Some thoughts on the religious role of ibex in the Ancient Near East. *African Studies Journal*, *43* (2), 456-467.

Parker, B. (1949). Cylinder seals from Palestine. *Iraq*, *11*, 1-43. https://doi.org/10.2307/4241686

Pittman, H. (1994). *The glazed steatite glyptic style: The structure and function of an image system in the administration of protoliterate Mesopotamia*. Dietrich Reimer.

Roets, M. (2018). Goats in the ancient Near East and their relationship with the mythology, fairytale, and folklore of these cultures. *Goats (Capra),* 1-20. IntechOpen. https://doi.org/10.5772/intechopen.82531

Van Buren, E. D. (1936). Sheep and corn. *Orientalia*, *5*, 127-137.

Verderame, L. (2016). Pleiades in ancient Mesopotamia. *Mediterranean Archaeology and Archaeometry*, *16* (4), 109-117. https://doi.org/10.5281/zenodo.220909

Wiggermann, F.A.M. (1992). *Mesopotamian protective spirits*. Brill. https://doi.org/10.1163/9789004676558

*(Tarix elmləri doktoru, professor Abbas Seyidov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 27.01.2026**
**Son variant 25.02.2026**